# Azərbaycan nümayəndə heyəti G20 qrupunun Ankarada keçirilən daha bir toplantısında iştirak edib

Sentyabrın 4-də Ankarada Türkiyənin sədrliyi ilə fəaliyyət göstərən G20 qrupunun (Böyük İyirmilik) üzvü olan və dəvət edilən ölkələrin maliyyə nazirləri və mərkəzi bank rəhbərləri ilə əmək və məşğulluq nazirlərinin birgə toplantısı keçirilib.

Azərbaycanın xüsusi dəvətli qonaq statusunda təmsil olunduğu qurumun bu toplantısında ölkəmiz geniş tərkibli rəsmi nümayəndə heyəti ilə iştirak edib.

Sonra qurumun maliyyə nazirləri və mərkəzi bank rəhbərlərinin toplantısı başlayıb. Burada ölkəmizi maliyyə naziri Samir Şərifov təmsil edib.

Sentyabrın 5-də işini davam etdirəcək toplantıda Baş nazir Əhməd Davudoğlunun iştirakı gözlənilir.

***Sabir ŞAHTAXTI,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

*Ankara*